## “Qarabağ: Zəfər yolunda” kitabından səhifələr

# SAĞALIR YARAN, VƏTƏN...

## (Hüseynov Ruslan Vəli oğlu - 19.05.1988 - 01.11.2020)

Cəmisi 44 gün ərzində II Qarabağ Müharibəsinin memarı olan əsgər və zabitlərimiz sonda düşməni diz çökdürməklə, bundan sonrakı illərdə də doğma torpaqlarımızı ələ keçirmək xülyasına düşənlərə xəyal qırıqlığı yaşatmağa hazır olduqlarını əyani şəkildə nümayiş etdirdilər. Az qala bir qərinəyə yaxın dövr ərzində ulu yurd yerlərimizi qanlı caynaqları ilə eşələyib xarabalıqlara çevirən gorbagor tayqulaq Andronik, satqın Qaragen Njde və daşnak Stepan Şaumyanın törəmələri gördülər ki, səbr kasası aşıb-daşanda hayqırıb ayağa qalxan xalqımızın igid övladlarının qarşısında duruş gətirmək mümkün deyil.

Hər qarış torpağı şəhid qanına boyanan Qarabağın nicatı naminə canlarını qurban verən şəhidlərimiz və qanlı döyüşlərin sonunda qələbə sevinci ilə xalqımızı müjdələyən qazilərimiz yaralı yurd yerlərimizin məlhəmini öz döyüşkən ruhları ilə əldə etdilər. Uca millətimiz qəddini-qamətini yenidən dikəldib, “dördböyrək” övladlarının hünərini alqışlayanda, illər uzunu yaraları göynəyən yurd yerlərimizin də yaraları qaysaq bağladı. Şair İsmayıl Mərcanlının bir şerinin aşağıdakı misralarında deyildiyi kimi:

...Var ol, ana Vətənim,
Sinəmizə sığmayan
Həm ürəksən, həm də can.
Qoy, üçrəngli bayrağım
Əbədi dalğalansın
Şəhid ucalığından...
Ta dilim gəlmir deyəm
Ağrıyır haran, Vətən?!
Məlhəmini ərənlər
Tapdılar Qarabağda,
Şükürlər olsun daha
Sağalır, sağalacaq
Köksündə illər boyu
Sızlayan yaran Vətən!

Ana Vətənimizə sədaqətli olduqlarını sübut edib, al qanlarıyla ömür dastanlarını yazanlardan biri də müzəffər ordumuzun əsgəri Hüseynov Ruslan Vəli oğludur. O, Beyləqan rayonunun Bahaq qəsəbəsində soykökləri ilə ağır elli Cəbrayılla bağlı bir ailədə göz açmışdı. Ruslanın fədakar, təmiz qəlbli, cəsarətli və xeyirxah bir insan olduğu orta məktəbdə oxuduğu illərdən onu tanıyanlara məlum idi. Zəhmətkeş ailədə boya-başa çatdığından, mərdliyin, halallığın, doğru-dürüst olmağın adama baş ucalığı gətirdiyini bilirdi. Bəlkə də elə bu insani keyfiyyətlərinə görə çox cavan olmağına rəğmən, müəllimləri, məktəb yoldaşları və yaşadığı qəsəbənin sakinləri tərəfindən sevilirdi. Bu mənada onun haqqında aşağıda deyilənlər də dərin məna kəsb edir:

**ATASI VƏLİ HÜSEYNOV:** Oğlum Ruslan bizim ailənin göz bəbəyi idi, onun barəsində saatlarla danışsam da, deyəcəklərim bitib tükənməz. Ruslan çox gözəgəlimli, ağıllı, qorxmaz, elini-obasını qəlbən sevən, valideynləri, qardaş bacıları və el-oba üçün candan yanan fəxrimiz idi. Bir sözlə, başımızın tacı, evimizin sütünüdirəyi idi, Ruslan.

O, qədər ürəkli, qorxmaz, cəsur idi ki, heç düşünmədən özünü hər kəsin yolunda qurban verməyi savab bilirdi. Mən də, anası Zeynalova Leyla da Ruslanın gələcəyinə ümidlə baxır, onun varlığına tapınırdıq. O, həm xarici görünüşü, həm də xarakteri ilə hamıda özünə qarşı hörmət hissi yaratmağa qadir idi. Düzdür, övladların hamısı mənimçün əzizdir, lakin Ruslanın yeri tamam başqadır. O, bizə nə qədər bağlı idisə, heç vaxt zərrə qədər də olsa gözümüzdən bir damla belə yaş çıxmağa razı olmazdı. Kaş, oğlum bu qədər candan yanan, bu qədər ürəyi yumşaq olmayaydı. Axı, deyilənə görə, qurban olduğumuz sevimli hesab etdiklərini dərgahına tez aparır. Bununla belə Ruslan nəslimizə, ailəmizə şərəf-şan qazandırıb. Bunu düşünəndə bir az toxdayır: “Vətən sağ olsun!”-deyirəm...

**BACISI HƏSƏNOVA GÜNEL:** Ruslanın çox cavankən dünyadan getsə də, qısa ömür yolunu zənginləşdirməyi bacardı. Beyləqanda döğulsa da, əslən Cəbrayıllıdır. 2006-cı ildə orta məktəbi bitirdikdən sonra 2007-ci ildə həqiqi hərbi xidmətə yollanmışdı. Əsgərlik dövrünü Gəncə şəhərindəki “N” saylı hərbi hissədə başa çatdıraraq xoş əhval-ruhiyyə ilə evimizə qayıtmışdı. Əsgərlikdə olanda hərbi təlimlərdə yüksək peşəkarlıq göstərdiyinə görə çeşidli mükafatlarla təltiv olunmuşdu. Qulluq etdiyi hərbi hissədə idmanın güləş növü üzrə uğurları yetərincə idi. Ruslan hərbi xidmətini uğurla başa vurduğu vaxt ona xidmət etdiyi hərbi hissədə qalmağı təklif etsələr də, razı olmamışdı. Qismət elə gətirdi ki, bir neçə müddətdən sonra özü hərbi hissədə hərbiçi kimi çalışmağa qərar verdi.



2013-cü ildə hərbi vəzifəsini davam etdirmək üçün kursa qəbul olmuşdu, kursu uğurla başa vurub, 2014-cü ildə kəşfiyyatçı kimi xidmətə başlamışdır. Vətənə qulluq etdiyi hərbi hissədə ən cəsur və say-seçmə kəşfiyyatçılardan biri hesab olunurdu. Çalışdığı müddət ərzində fəxri fərman və mükafatlara layiq görülmüşdü. 2016-cı ildə Aprel döyüşlərinin ən fəal iştrakçısı olmuş, öndə gedən kəşfiyyatçı kimi öz missiyasını şərəflə yerinə yetirmək baxımından xüsusi fərqlənmişdi. O, İkinci Qarabağ Müharbəsi başlayanda ön sıralarda yer almış, Vətən yolunda canını fəda edən oğullardan biri olmuşdur.

Ruslan Cəbrayl, Füzuli, Xocavənd, Zəngilan və Qubadlının işğaldan azad edilməsində xüsusi qəhramanlıq göstərmişdir. Qardaşım o qədər qorxmaz və mətin iradəyə sahib idi ki, onun döyüşlərdə gec-tez şəhid olacağı bəlkə də bu xüsusiyyətlərindən qaynaqlanmışdı. Verilən hər bir tapşırığa canı-dildən əməl edir, heç vaxt kiminsə kölgəsində qalmağı mənliyinə sığışdırmırdı.

Ruslan 2020-ci ilin 01 noyabır tarixində Xocavəndə və Şuşaya gedən istiqamətdə, Qırmızıbazar deyilən qəsəbənin həndəvərində şəhidlik zirvəsinə ucaldı. Ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə "Vətən uğrunda", "Füzulinin azad olması" və "Xocavəndin azad olunması" uğrunda medalları ilə təltif edilməyi şəhid qardaşımın cəsur əsgər olduğundan soraq verməkdədir...

**QARDAŞI HÜSEYNOV İSKƏNDƏR:** Mən qardasım Ruslanla həmişə fəxr etmişəm, çünki o, çox mehriban, geniş ürəkli, tanıyıb-tanımadığı hər kəsə yardımçı olmaq istəyini sərgiləyən bir şəxs idi. Ailəmizdə onun xətrini hamımız çox istəyirdik. Hər kəsin yerini bilən, qardaş-bacılarını, onların uşaqlarını, taytuşlarını və dost-tanışlarını şirin dillə dindirməkdən həzz alırdı.

Ruslan uşaq yaşlarından çevik və cəsarətli idi, haqqı nahaqqın ayağına verən deyildi. Həm də çox qəlbi yuxa, yanımcıl, el-obanın təəssübünü çəkən cavan kimi tanınır, elə buna görə də hamının yanında xətir-hörmət yiyəsiydi. Ruslan həyatını erkən başa vursa da, mənalı bir ömür yaşadı. Sonu şəhidliklə bitən ömrünün davamını bundan sonrakı vaxtlarda o, insanların qəlbində yaşayacaq. Çünki ömrünü xalq yolunda, vətənin azadlığı naminə qurban verənlər həmişəyaşar olurlar. Qardaşım Ruslanın da belə cəngavər oğulların sırasında əbədi şöhrət qazanması çox qürurverici bir haldır!..

**BACISI HÜSEYNOVA MƏDİNƏ:** Mən Ruslanın kiçik bacısı kimi onu çox sevirdim. Sağlığında onunla birgə nəfəs alır, boyunu əzizləyirdim. Hər dəfə hərbi formada maşından düşüb evimizə gələndə ürəyim dağa dönürdü. Elə zənn edirdim ki, əsgər geyimi əzəldən onun boyuna biçilib. Ona, Ruslan, qurban olum bir az ehtiyatlı ol, özünü qorumağa çalış-deyəndə, gülümsüyüb deyirdi ki, biz əvvəlcə Vətəni, sonra da özümüzü qorumalıyıq...

Sonra da bizə toxdaqlıq verməyi unutmur, xidmət yerindən, əsgər dostlarından söz açırdı. Ölümündən sonra eşitmişdik ki, əksər vaxtlarda ən təhlükəli yerlərə getmək lazım gələndə özünü qabağa verirmiş.

Hərbiçi dostlarından biri danışır ki, bir gün güclü yağış yağırdı. Ruslan bizdən qabaqkı səngərdə mövqe tutan bir neçə döyüşçüyə xörək və yağışdan qorunmaq üçün üst geyimi aparmaq istəyəndə, dedik ki, hələ getmə, gözləyək ara bir az sakitləşsin. O, inadından dönməyərək bildirdi ki, onlara elə indi dəstək verməliyik, yoxsa ac-susuz qalıb, özü də yağışda islanandan sonra taqətlərini itirə bilərlər.

Sonra da, qorxmayın, Allah özü mənə kömək edəcəkdir-deyib getdi və təzədən heç nə olmamış kimi gülə-gülə yanımıza qayıtdı...

Çox təəssüf ki, Ruslan müharibənin sonuna bir neçə gün qalmış həyatla vidalaşdı. Bununla belə onun vaxtsız ölümü qəddimizi büksə də, şəhid adına söykənib iftixar hissiylə arzuladığı səmtə, yurgumuzun şəfəq saçan dan yerinə ümidlə boylanacağıq...

Ruslanın uğrunda can verdiyi Vətən torpağı bu qeyrəti Cəbrayıllı balasını bağrına basdığı anlarda Beyləqan əsilli tanınmış şairə Əzizə Ağahüseynqızı qeyrətli Azərbaycan oğullarından birinə xitabən yazdığı aşağıdakı şeirinin son misrasını tamamlayıb, Allahdan cəmi şəhidlərimizə rəhmət diləməkdə idi:

Uğrunda canını qıydı,
Hər nərəsi səsdi-hoydu.
Başını sinənə qoydu,
Torpaq, sənə şəhid gəlir!
Həm qardaşsan, həm bacısan,
Həm şəkərsən, həm acısan.
Anasının anasısan,
Torpaq, sənə şəhid gəlir!
Məhv olmur ki, düşmən qarı,
Rahat ola könlüm barı!
Ana ol, yarasın sarı,
Torpaq, sənə şəhid gəlir!

İstəkli şairə elqızımız Əzizə xanım da bizim hamımız kimi ürəkdən inanır ki, şəhid balalarının yaralarına məlhəm olan Vətən torpağı ərən oğulların qəbrinin gələcək nəsillər üçün ziyarətgaha çevrilməsi üçün qoruyub saxlayacaqdır. Vətən bölünməz olduğu kimi, şəhidlərimiz də yurdumuzun qeyrət simvollarıdır!..

*İsmayıl İMANZADƏ*
*Tariyel ABBASLI,*

